

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (21.817)

18 avqust 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində yenidənqurma işləri davam etdirilir



Muxtar respublikada səhiyyə sistemində həyata keçirilən islahatlar bu gün keyfiyyətcə yeni mərhələyə yüksəlib. Əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi bu gün muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Tikilən yeni xəstəxanaların, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb.

Səhiyyə sahəsində aparılan quruculuq tədbirlərinin davamı olaraq hazırda Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası binasının yenidən qurulması davam etdirilir. "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən binanın çardaq hissəsi yenilənir, interyer dizaynına yeni elementlər əlavə olunur. Bundan başqa, inşaatçılar fasad hissənin müasir üslubda üzlənməsini də həyata keçirir, binanın kommunikasiya xətlərini dəyişdirir, həyətdə abadlıq işlərinə hazırlıq görürlər.

Qeyd edək ki, şəhərimizin "İstiqlal" küçəsindəki yaşayış binalarından bir neçəsində də yenidənqurma işləri aparılır. 45 mənzillik 79 nömrəli və 36 mənzillik 113 nömrəli binalarda əsaslı təmir işləri başa çatmaq üzrədir. Binalarda elektrik, rabitə, su, qaz xətləri yenisi ilə əvəz edilib, smartkarttipli qaz sayğacları quraşdırılıb. Hər iki binanın zirzəmisinin torpağı çıxarılıb, mülki müdafiə məqsədilə təmir olunub. 113 nömrəli binanın eni 3 metr artırılıb. Ərazidə abadlıq işləri də aparılacaq. Həmin küçədəki 56 mənzillik 121 nömrəli bina da əsaslı təmir edilir. Hazırda binanın fasad hissəsində suvaq işləri görülür.

Şəhərimizin Həsən Əliyev küçəsindəki 2 nömrəli binada da yenidənqurma və təmir işləri yekunlaşmaq üzrədir. Binanın eni 3,6 metr artırılıb, su, kanalizasiya, rabitə və elektrik xətləri yenilənib.

✍ Səbuhi HÜSEYNOV





*Naxçıvan Muxtar Respublikasında artan əhali tələbatına uyğun olaraq iqtisadi və sosial sahələrin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilməklə səmərəli məşğulluq təmin edilir. Kompleks inkişafın dinamik xarakter almasında "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası mühüm rol oynayıb, iri sənaye, kənd təsərrüfatı və xidmət sahələri yaradılıb, əhalinin təhsil, səhiyyə və digər sosial təminatları yaxşılaşdırılıb.*

## Muxtar respublikada əhalinin gəlirləri artıb

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi göstəricilərin pozitiv meyilliliyi təmin edilib, 2004-cü illə müqayisədə 2016-cı ildə ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsulun həcmi 11,1, sənaye məhsulunun həcmi 36,9, əsas kapitala yönəldilən investisiyalar 12,4, kənd təsərrüfatının ümumi məhsulu 5,5, nəqliyyat sektorunda yük daşınması 2,6, informasiya və rabitə xidmətlərinin həcmi 7,8, o cümlədən mobil rabitə xidməti 9,2, pərakəndə əmtəə dövriyyəsi 12,7, əhaliyə göstərilən pullu xidmətlər 10, ixracın həcmi 80 dəfə artıb.

Yeni sənaye müəssisələrinin, istehsal və xidmət sahələrinin yaradılmasının, sahibkarlığa göstərilən qayğının nəticəsidir ki, ümumi daxili məhsulun tərkibində özəl bölmənin payı 2004-cü illə müqayisədə artaraq 2016-cı ildə 87 faizi ötüb.

Muxtar respublikada əmək bazarının tənzimlənməsində, əhalinin səmərəli məşğulluğunun və özünüməşğulluğunun təmin edilməsində, işaxtaranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ötən dövr ərzində həyata keçirilən digər tədbirlərlə yanaşı, 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015 və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası da mühüm rol oynayıb. Aparılmış kompleks tədbirlərin nəticəsidir ki, 2004-cü ildən 1 iyul 2017-ci il tarixədək muxtar respublikada 69 min 375 yeni iş yeri açılıb ki, bunun da 75,9 faizi daimi iş yerləridir. Bu dövr ərzində muxtar respublikada açılmış 52 min 651 daimi iş yerinin 8 min 72-si və ya 15,3 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 15 min 94-ü və ya 28,7 faizi mövcud müəssisə və təşkilatlarda, 1141-i və ya 2,2 faizi fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 28 min 344-ü və ya 53,8 faizi isə fiziki şəxslərdə yaradılıb. Açılmış yeni iş yerlərinin 44,6 faizi Naxçıvan şəhərinin, 14,4 faizi Şərur, 11,9 faizi Babək, 6,8 faizi Ordubad, 8,1 faizi Culfa, 6,6 faizi Kəngərli, 5,2 faizi Şahbuz, 2,4 faizi isə Sədərək rayonlarının payına düşüb. Həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün rəsmi işsiz statusu alan şəxs qeydə alınmayıb, məşğul əhalinin sayı 2004-cü ilin sonu ilə müqayisədə 1,4 dəfə artaraq 2017-ci ilin ilk yarımilində 234,5 min nəfərə çatıb.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaradıb, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 414 manatı ötüb. 2004-cü ildə bu göstərici 68 manat səviyyəsində olub. Hazırda bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği dövlət sektorunda 318 manat, qeyri-dövlət sektorunda isə 475,5 manat təşkil edir.

Yeni iş yerlərinin açılması, orta aylıq əməkhaqqının artımı, ümumilikdə, iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb, 2004-cü illə müqayisədə 2016-cı ildə əhalinin gəlirləri 8,4 dəfə artaraq 1 milyard 825 milyon manatı ötüb. 2017-ci ilin ilk yarımilində də əhali gəlirlərinin artımı davam edib, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə əhalinin gəlirləri 1,1 faiz artaraq 820 milyon manata çatıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Avqust ayı üçün əmək pensiyalarının ödənişi başa çatdırılıb

***Naxçıvan Muxtar Respublikasında əhalinin, xüsusilə də pensiyaçıların sosial müdafiəsi həmişə diqqət mərkəzində saxlanılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada əməkhaqları, pensiya və müavinətlər hər ay vaxtında ödənilir.***

Bu tədbirlərin davamı olaraq 2017-ci ilin avqust ayı üçün əmək pensiyalarının ödənişi vaxtından əvvəl başa çatdırılıb. Pensiyaların ödənişi üçün tələb olunan vəsait əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürülüb. Eyni zamanda məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanların da plastik bankomat kart hesablarına və ya poçt ünvanlarına müavinətlərin ödənilməsi üçün vəsait köçürülüb.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu muxtar respublika üzrə bütün sığortaolunanların, o cümlədən işləyən əmək pensiyaçılarının 2006-cı il yanvarın 1-dən 2017-ci il 1 iyul tarixinədək olan dövrdə fərdi hesabın sığorta hissəsində olan pensiya kapitalını 80 faiz artıraraq 2017-ci il 1 iyul tarixinə hər bir sığortaolunanın fərdi hesabının sığorta hissəsində qeydə alınmasını həyata keçirib. Qanuna edilmiş dəyişikliklərin icra edilməsi məqsədilə, fondun yerli orqanları tərəfindən 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyaçılarının pensiyalarının baza və sığorta hissəsinin cəmi məbləği dəyişdirilmədən əmək pensiyasının sığorta hissəsinə şərti çevrilməsi aparılıb. Həmçinin 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarının baza hissəsinə əlavələr dəyişdirilmədən bu Qanunun 19-cu maddəsinə uyğun əmək pensiyalarının sığorta hissəsinə əlavələr kimi nəzərə alınıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Tütünçülüyün inkişafı üçün potensial imkanlar var

*Müasir iqtisadiyyatın inkişafı onun çoxşaxəliliyinin təmin olunması ilə sıx bağlıdır. Bu gün əhali tələbatlarının artması və eyni zamanda idxaldan asılılığın azaldılması məsələləri ilə əlaqədar bir sıra iqtisadi layihələr reallaşdırılır, yeni layihələr üzərində iş aparılır, kənd təsərrüfatının əhəmiyyət kəsb edən sahələri yenidən inkişaf etdirilir. Bu baxımdan çox da uzaq olmayan keçmişdə ölkəmizdə və muxtar respublikamızda mühüm ixracyönümlü istehsal sahələrindən biri olmuş tütünçülüyün də inkişafına diqqət artırılır.*

Tütün və tütün məhsullarının sağlamlığa zərəri ilə bağlı hər bir kəsin kifayət qədər məlumatı vardır. Zərərli vərdiş kimi insanlar arasında yayılmış tütünçülük məhsullarına olan aludəçiliyin azaldılması, onun tamamən yox edilməsi üçün qanunvericilik səviyyəsində ciddi addımlar atılır. Bununla yanaşı, hazır istehlak məqsədilə tütünçülük məhsullarının idxal olunması da ölkə iqtisadiyyatına ciddi valyuta itkisi ilə nəticələnir. Ona görə də bu sahə üzrə yerli imkanlardan səmərəli istifadə olunması ən azından iqtisadi cəhətdən gəlirliyin təmin olunması deməkdir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" isə bu sahəyə olan diqqətin bariz nümunəsidir.

Bəs tütünçülüyün inkişafından gözlənilən nəticələr nədir və bu sahə iqtisadi cəhətdən nə dərəcədə səmərəlidir? Əvvəlcə qeyd edək ki, ölkəmizin, o cümlədən muxtar respublikamızın əlverişli torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, emal sənayesi müəssisələrinin xammala olan tələbatlarının yerli istehsal hesabına ödənilməsi imkanları və ixrac potensialının olması aqrar sahənin daha da inkişafına əlverişli şərait yaradır. Bu da ənənəvi sahələrin inkişafı ilə mühüm nəticələrin əldə olunmasına imkan verir. Bir vaxtlar belə sahələrdən biri – tütünçülük üzrə istər ölkəmizdə, istərsə də muxtar respublikamızda güclü istehsal-ixrac potensialı olub. Belə ki, 1970-1980-ci illərdə respublikada tütün əkini sahəsi 17 min hektar, istehsalının həcmi isə 60 min tondan çox idi.

Tütünçülüyün inkişafı tütün və tütün məmulatlarına olan tələbatın ödənilməsi ilə yanaşı, bu sahə üzrə emal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və tütünçülük məhsullarının ixracının artırılmasına da imkan verəcəkdir. Bundan əlavə, tütünçülüklə məşğul olan kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi baxımından da bu sahənin inkişafı perspektivlidir.

Muxtar respublikamızda tütünçülükdə əsaslı təsərrüfatçılıq ənənələri mövcud olub, bu gün isə həmin sahənin inkişaf etdirilməsi üçün geniş imkanlar var. Belə ki, statistikalara əsasən ötən əsrin 70-80-ci illərində Azərbaycanda tütünçülük öz əhəmiyyətinə görə texniki bitkilər arasında pambıqdan sonra ikinci yeri tuturdu. O dövrdə istehsal olunmuş on minlərlə ton tütünün mühüm bir hissəsi isə Naxçıvanın payına düşürdü. Başqa sözlə, o dövrdə Naxçıvan iqtisadi rayonu tütünçülüyün inkişaf həcminə görə Şəki-Zaqatala zonasından sonra ikinci sırada yer almışdı. Həmin dövrlərdə tütün, əsasən, Kəngərli rayonu ərazisində əkilib-becərilib, bu sahədən təsərrüfatlar xeyli gəlir əldə edib.

Son illərdə ölkəmizdə qeyri-neft sektoru sahələrinə olan diqqətin daha da artması ilə muxtar respublikamızda ənənəvi sahələr arasında olmuş tütünçülüyə də maraq artıb. Bu məqsədlə cari il "Cahan Tobacco" MMC tərəfindən Kəngərli rayonunun ərazisində tütün əkininə başlanılıb. Şirkətdən aldığımız məlumata əsasən bu məqsədlə ilk olaraq müxtəlif yerlərdən götürülmüş torpaq nümunələri laboratoriyada analiz edilib və rayonun Xıncab və Təzəkənd ərazilərinin tütün əkini üçün yararlılığına qərar verilib. Mart ayının əvvəlindən Xıncab kəndində 5 sot torpaq sahəsində istixanalar qurulub, yetişdirilmiş tütün şitilləri 10 hektara yaxın ərazidə əkilib. Artıq iyul ayından başlayaraq yarpaq yığımına, məhsulun qurudulmasına başlanılıb.



"Cahan Tobacco" MMC-dən bildirdilər ki, tütünçülüyə marağın artması idxal xammalın əvəz olunmasına, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçilərinin gəlirlərinin çoxalmasına səbəb ola bilər. Əkilmiş sahələrdən 10 min kiloqramdan artıq quru tütün əldə olunması gözlənilir. Şirkətdən onu da qeyd etdilər ki, bu layihədə hazırda 8 nəfər daimi, 10-12 nəfər günəmuzd işlə təmin edilib.

✍ Əli CABBAROV

# Barlı-bərəkətli torpaqlarımızda keyfiyyətli məhsullar yetişdirilir

***Bu gün barlı-bəhərli münbit torpaqlarımızda müxtəlif əkinçilik məhsulları yetişdirilir, bolluq yaradılır, daxili bazarın tələbatının ödənilməsi üçün torpaq mülkiyyətçilərinə hərtərəfli qayğı göstərilir. Yetişdirilən belə məhsullar içərisində ikinci çörək hesab etdiyimiz kartof da üstünlük təşkil edir. Fərəhlə qeyd etmək olar ki, digər ərzaq məhsulları ilə yanaşı, kartofun bolluğu onun qiymətinin münasib olmasına, həm də alıcıların tələbatını yerli məhsullar hesabına ödənilməsinə gətirib çıxarır. Bu mövzuya müraciət etməyimiz də təsadüfi deyil. İnsanların gündəlik qida rasionunda onun mühüm yeri var. İl ərzində bir nəfərə 120 kiloqram kartof norması düşür.***

Muxtar respublikanın torpaq-iqlim şərtləri yüksəkkeyfiyyətli kartof məhsulu götürməyə imkan verir. Hətta aran zonalarda il ərzində iki dəfə məhsul əldə etmək mümkündür. Bu vacib sahənin intensiv amillər hesabına inkişaf etdirilməsi məhsul bolluğunun yaradılmasını təmin edib. Belə ki, ildən-ilə kartof istehsalı artan templə davam edir. 2016-cı ildə bu göstərici 46 min 400 tona çatdırılıb.

Qeyd edək ki, kartof muxtar respublikamızın Şərur rayonunda daha geniş şəkildə əkilib-becərilir. Builki mövsümdə 1064 hektar sahədə məhsul yetişdirilib. Mütəşəkkil hazırlıqdan sonra kartof yığımına başlanılıb. Qısa müddətdə 300 hektar sahənin məhsulu yığılıb. Hektarın orta məhsuldarlığı 15 tona yaxındır.

Rayonun abad yaşayış məntəqələrindən biri olan Cəlilkəndin torpaq mülkiyyətçiləri də kartof əkininə üstünlük verirlər. Kəndin ümumi torpaq sahəsi 220 hektardır. Bu torpaqların 150 hektarı suvarılandır. Kənd əməkçiləri builki mövsümdə 34 hektarda kartof, 30,8 hektarda qarğıdalı, 12 hektarda tərəvəz, 14 hektarda isə taxıl yetişdiriblər. Naxçıvan-Sədərək magistralının sol tərəfində qərar tutan bu kəndin ərazilərində son günlər bir qaynarlıq hiss olunur. Ömrünün 40 ilini torpağa bağlayan, ixtisasca aqronom olan, təcrübəli təsərrüfatçı Familə Mirzəyeva da onlardan biridir. Onun başçılıq etdiyi ailə təsərrüfatında bu il 3,5 hektarda taxıl, 1 hektarda soğan və sarımsaq, 2 hektarda qarğıdalı, 1 hektarda isə kartof yetişdirilib.

Familə Mirzəyeva deyir ki, Cəlilkənddə əhalinin əksəriyyəti torpaqdan bəhrələnir. Uzun illər qazandığım təcrübə səmərəsini verir. Münbit torpaqlarda taxıl, kartof, sarımsaq, qarğıdalı əkib-becərir, heyvandarlıqla məşğul oluruq. Təsərrüfat suyumuz da boldur. Axarlı-baxarlı Arpaçay bizim ərazidən keçir. Öz ailə təsərrüfatımızla bərabər əlavə olaraq 6 nəfər kənd sakini də bizimlə çalışır. Yaraşıqlı evəşiyimizi, minik maşınımızı, xoş gün-güzəranın hamısını torpağın, zəhmətin hesabına əldə etmişik. Torpaq insanı ucaldır, yaşadır.



Rayonun o qədər də böyük olmayan Ələkli kəndində kartofçuluğun inkişafına önəm verilir. Ötən il bu kiçik yaşayış məntəqəsində sahələrdən 200 tondan artıq kartof götürülüb. Torpaq mülkiyyətçiləri ilin bol məhsulunun əsasını yazın ilk aylarından qoyurlar. Belə ki, kartof əkinləri optimal müddətlərdə və aqrotexniki qaydalarda həyata keçirilir.

Torpaq mülkiyyətçilərinin qayğıları ilə yerindəcə tanış olmaq üçün isti yay günlərinin birində bu kəndə getdik. Burada əkinçiliyin bütün sahələri, xüsusən də taxılçılıq, kartofçuluq, tərəvəzçilik, meyvəçilik, eləcə də heyvandarlıq inkişaf etdirilir.

Torpağa baş əyən insanlarla elə iş başındaca, onların həyətyanı sahəsində görüşüb həmsöhbət olduq. Kənd sakini Vaqif Bayramov söhbət zamanı bildirdi ki, biz hər il kartof əkirik. Yaxşı da təcrübə qazanmışıq. Əkin vaxtı məhsuldar toxumlardan istifadə edirik. Bu sahədə də çətinliyimiz yoxdur. Dövlət tərəfindən yüksək reproduksiyalı toxum sortları gətirilir. Özümüzün əkin üçün saxladığımız yerli toxumlarımız da var. Əkini vaxtında aparırıq. Hər il martın ortalarına kimi kartofu əkib yekunlaşdırırıq. Həyətyanı sahələrdə əkini əl üsulu ilə həyata keçiririk. Pay torpaqlarında isə kartofu texnika ilə əkənlər də var. Elə ki taxıl biçini başa çatdırıldı, dərhal kartofun yay əkininə başlayırıq. Deyim ki, kartofun yay əkini daha səmərəlidir. Belə ki, isti yay günlərində əkilən kartof havanın sərin vaxtlarında, daha doğrusu, oktyabr-noyabr aylarında çıxır. Məhsul bol və keyfiyyətli olur.

Ələkli kəndində pay torpaqlarından səmərəli şəkildə istifadə edib, bol məhsul götürən torpaq mülkiyyətçilərindən biri də 56 yaşlı Ziyad Allahverdiyevdir. O, həyətyanı sahəsində gözoxşayan bağ-bağça salıb, müxtəlif əkinlər əkib. Sahələrə nümunəvi qulluq edildiyindən məhsul da boldur. Xüsusən də kartof əkinindən yaxşı məhsul götürür. Bu il də bol məhsul yetişdirib.

Yaxşı haldır ki, bu kənddə 70-80 yaşlı sakinlər də əkin-biçin işlərində gənclərdən geri qalmır, məhsul bolluğu yaradılmasına töhfələrini verirlər. Belələrindən biri 83 yaşlı Nəcəf Bayramovdur. Uzun illər inşaat sahəsində çalışan Nəcəf kişi təqaüdə çıxdıqdan sonra taleyini torpağa bağlayıb. O, torpağı sağlamlığın rəhni hesab edir. Deyir ki, ömrümün bu vədəsində də özümü torpaqdan ayrı hesab etmirəm. Torpaq sərvətdir, xalqın nemətidir. Onu yaşıllaşdırmaq, gözəlləşdirmək isə bizim amalımız olmalıdır. Kəndimizdə hara baxırsan, hansı tərəfə boylanırsan, yaşıllıq, gözəllik, barlı-bəhərli meyvə bağları görürsən.

Öyrənirik ki, o da gəlirli sahə olan, mətbəximizdə ən çox istifadə edilən ərzaq məhsulu yetişdirməklə – katofçuluqla da məşğuldur.

Qədim əkinçilik diyarı olan Şərur rayonunda münbit torpaqlardan keyfiyyətli məhsul götürülməsində təsərrüfat suyunun bolluğu da mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan 150 milyon kubmetr su tutumu olan Arpaçay dəryaçası Şərur torpaqlarının suvarılmasında mühüm rol oynayır. Rayon suvarma sistemləri idarəsinin kollektivi mövcud sulardan səmərəli şəkildə istifadə edir, əkin sahələrinin suvarılması təmin olunur. Bu il rayonda 14 min hektardan artıq sahədə taxıl, kartof, tərəvəz, qarğıdalı və sair əkilib ki, bunlar da daim su istəyən bitkilərdir.

Artıq avqust ayının ikinci ongünlüyünü yaşayırıq. İlin bu vədəsində kəndli əməyi, torpağa bağlı insanların çəkdiyi zəhmət artıq bəhrəsini verməkdədir. Bol və keyfiyyətli məhsul yetişdirən insanların üzü gülür. Diyarımıza gələn qonaqlar da Naxçıvan məhsullarının keyfiyyətindən, faydasından həvəslə söz açırlar. Bu məhsulları yetişdirib ərsəyə gətirənlər isə zəhmətkeş kənd adamları və münbit torpaqlarımızdır. Odur ki, torpaq hər zaman insan üçün yaşayış tərzini nizamlayan, gün-güzəranı yaxşılaşdıran, firavan həyatı təmin edən amil olub. Bir şərtlə ki, ona baş əyəsən, qayğısına qalasan, bərəkətini artırasan.

**Məhəmməd FƏRƏCOV**
***Naxçıvan Dövlət Radiosunun baş redaktoru***

# Heyvandarlığın inkişafı diqqət mərkəzindədir

***Muxtar respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır.***

Son illər heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz təsirini göstərib.

Mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında, məhsuldarlığın yüksəldilməsində süni mayalandırma məntəqələrinin son illərdə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Həyata keçirilən tədbirlər cari ilin birinci yarımilində də davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətindən aldığımız məlumata görə, hazırda muxtar respublikada 23 süni mayalandırma məntəqəsi fəaliyyət göstərir. Cari ilin 1 iyul tarixinə olan məlumata görə, muxtar respublikada 5615 baş iribuynuzlu mal-qarada süni mayalandırma tətbiq olunub, 3807 baş bala alınıb.

Qeyd edək ki, muxtar respublikada heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə göstərilən dövlət dəstəyi nəticəsində son illərdə bu sahədə xeyli müsbət nəticələr əldə olunub. 2000-ci illə müqayisədə 2017-ci ilin ötən dövründə regionumuzda iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların sayı 2 dəfəyədək artıb.

✍ **Səbuhi HƏSƏNOV**

# Elmi əsasların əkinçilik sistemində tətbiqi məhsul bolluğuna şərait yaradır

***Muxtar respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında toxumçuluq təsərrüfatlarının üzərinə mühüm vəzifələr düşür. Çünki torpaq mülkiyyətçilərini, fermer və sahibkarları yüksəkkeyfiyyətli toxumlarla təmin etmək məhz bu təsərrüfatların vəzifəsidir.***

Naxçıvanda uzun illərdir ki, fəaliyyət göstərən Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi də işini bu istiqamətdə uğurla həyata keçirir. Birliyin fəaliyyəti ilə yaxından tanış olmaq üçün adıçəkilən müəssisəyə yollandıq.

"Araz" Elm-İstehsalat Birliyinin direktoru Bəhruz Bayramov bizimlə söhbət zamanı bildirdi ki, bu müəssisə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə tabe olan struktur təşkilatdır. Birliyin yaradılmasında məqsəd muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun bitkiçilik və heyvandarlıq sahələrində elmi-tədqiqat işləri aparmaq, məhsuldar toxum sortları yetişdirmək, qazanılmış müsbət nəticələri təsərrüfatlara tövsiyə etməkdir. Birliyin nəzdində 5 şöbə, Şərur, Ordubad dayaq məntəqələri, Şıxmahmud, Nehrəm sort sınaq məntəqələri və Yardımçı Təcrübə Təsərrüfatı fəaliyyət göstərir. İstər şöbə və məntəqələrdə, istərsə də Yardımçı Təcrübə Təsərrüfatında ötən dövr ərzində muxtar respublikanın rayonlarında torpaq-iqlim şəraitinə uyğun elmi-tədqiqat işləri aparılıb.

Sort sınaq və dayaq məntəqələrinin yaradılmasında məqsəd isə hər rayonun torpaq-iqlim şəraitinə uyğun elmi-tədqiqat işləri apararaq müsbət nəticə almaqdır. Birliyin fəaliyyəti dövründə təkcə istehsalatla deyil, kadr yetişdirilməsi ilə də ciddi məşğul olunub, bu gün də həmin ənənə qorunub saxlanılır. Belə ki, birliyin onlarla elmi işçisi Azərbaycan Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin müxtəlif elmi-tədqiqat institutlarının aspirant və dissertantlarıdır.

Sort sınaq və dayaq məntəqələrinin fəaliyyətindən bəhs edən müsahibimiz bildirdi ki, Ordubad rayon dayaq məntəqəsində 370 yerli və gətirilmə meyvə sortu qorunub saxlanılır. Burada məntəqəyə məxsus kolleksiya meyvə genofondunun qorunması ilə bərabər, yerli meyvə sortu tingçiliyi də təşkil olunub. Bölgədə meyvəçiliyə aid maarifləndirmə işləri aparılır, bununla bərabər, məntəqədə elmi-tədqiqat mövzusu işlənilir.

Şıxmahmud sort sınaq məntəqəsində Azərbaycanın müxtəlif elmi-tədqiqat institutlarından və bölgələrdən göndərilmiş 25 yumşaq, 7 bərk buğda, 8 arpa sortları üzərində sınaqlar keçirilir. Digər tərəfdən, birliyin Seleksiya, toxumçuluq, bitki mühafizəsi şöbəsi tərəfindən 100-ə yaxın arpa və buğda sortları üzərində seleksiya işləri aparılır.

Burada olarkən öyrəndik ki, birliyin yardımçı təsərrüfatı muxtar respublikada fəaliyyət göstərən toxumçuluq təsərrüfatlarından biridir. Təsərrüfatda buğda, arpa və digər bitki toxumları istehsal edilərək torpaq mülkiyyətçilərinə satılır. Bununla bərabər, təcrübələrdə aparılan hər bir becərmə texnologiyası haqqında mülkiyyətçilərə mütəmadi olaraq keçirilən tarla seminar-müşavirələrində məlumatlar verilir.

Birliyin Yardımçı Təcrübə Təsərrüfatı Babək rayonunun Şıxmahmud kəndi ərazisində yerləşir. Təsərrüfatın 83,69 hektar torpaq sahəsi mövcuddur. Əkinəyararlı 72 hektar ərazidə müxtəlif kənd təsərrüfatı bitkiləri əkilərək elmi sınaqlardan çıxarılır. Təsərrüfat həm də toxumçuluq istiqamətində formalaşıb. Qeyd etmək yerinə düşər ki, birliyin elmi əməkdaşlarının və təsərrüfatın fəaliyyəti nəticəsində qonşu ölkələrin, o cümlədən bir sıra dünya ölkələrinin taxılçılıq, kartofçuluq, bostançılıq, yemçilik və sair sahələrdə qazandıqları yeni texnologiyaların tətbiqinə nail olunub, bir sıra uğurlar əldə edilib. Təsərrüfat taxılçılıq sahəsində muxtar respublika fermerlərini keyfiyyətli taxıl məhsulları ilə təmin etmək prinsipini



əsas götürərək hər zaman bu sahəyə diqqət yetirir. Göstərilən dövlət qayğısının nəticəsidir ki, burada xırman kompleksi inşa edilib. Həmin əraziyə asfalt örtüyü çəkilib ki, bunun da sayəsində biçilmiş taxılın vim aqreqatında çeşidlənməsi üçün əlverişli şərait yaradılıb.

Muxtar respublikamızda kartofçuluğun inkişaf etdirilməsi üçün tez, orta və gecyetişən kartof toxumları gətirilərək Yardımçı Təcrübə Təsərrüfatında və Şərur dayaq məntəqəsində sınaqdan keçirilib, əl əməyindən minimum istifadə olunmaqla kartofun yeni səmərəli becərmə texnologiyaları tətbiq edilib, muxtar respublikanın Arazboyu aran zonasında kartof bitkisinin yüksək məhsul verməsi elmi cəhətdən sübuta yetirilib. Bundan əlavə, bostançılıq sahəsində əhalinin ekoloji saf bostan məhsulları ilə təmin edilməsi istiqamətində birliyin elmi əməkdaşlarının apardıqları təcrübə nəticəsində bu məhsulların yeni texnologiyalar əsasında yetişdirilməsinə nail olunub.

Birliyin elmi əməkdaşları Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun və BMT-nin ərzaq təşkilatı olan FAO-nun yetişdirdiyi buğda və arpa sortlarını zonada sınaqdan keçirərək, bir neçə buğda və arpa sortunun rayonlaşdırılmasını təmin ediblər.

Akademik Cəlal Əliyevin rəhbərliyi altında yetişdirilən payızlıq buğda sortlarından "Qobustan", "Bərəkətli-95", "Nurlu-99", "Pərzivan", "Şiraslan", payızlıq arpa sortlarından isə "Qarabağ-22", "Cəlilabad-19" muxtar respublikanın torpaq-iqlim şəraitində sınaqdan keçirilib, həmin sortlar artırılaraq fermer təsərrüfatlarına verilib. Birliyin əməkdaşları tərəfindən "Kəhrəba" buğda, "İstiqlal" arpa, "Şərur" buğda sortları yaradılıb və əkilməyə tövsiyə olunub.

✍ **Gülcamal TAHİROVA**

*Turizm*

# Naxçıvan Turizm İnformasiya Mərkəzi muxtar respublikanın turizm potensialının təbliği istiqamətində ardıcıl işlər görür

***Bu gün sosial-iqtisadi inkişafın sürətlənməsində mühüm rol oynayan turizm fəaliyyətinin genişləndirilməsi istiqamətində Naxçıvanda kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 may tarixli Fərmanı ilə Naxçıvan Turizm İnformasiya Mərkəzinin yaradılmasında məqsəd də muxtar respublikanın turizm potensialının təbliğində görülən işlərin daha da sürətləndirilməsidir.***

Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri də bu mədəniyyət müəssisəsinə müraciət edən yerli və xarici vətəndaşların məlumatlandırılmasıdır. Bununla birlikdə mərkəz digər vəzifələri də yerinə yetirir. Belə ki, muxtar respublikanın turizm potensialını özündə əks etdirən əyani vəsaitlərin hazırlanması və onların dərc olunması, Turizm Məlumat Bankının formalaşdırılması və serverinin texniki cəhətdən təmin olunması, internet resurslarından istifadə edilməklə muxtar respublikanın turizm potensialının təbliği, ölkə ərazisində fəaliyyət göstərən digər turizm informasiya mərkəzləri ilə əlaqələrin yaradılması və informasiya mübadiləsi aparılması qarşıya qoyulan vəzifələrdəndir. Mərkəzin internet səhifəsində muxtar respublikamızda turizm sahəsindəki yeniliklər öz əksini tapır, bura müraciət edənlərə otellər, restoranlar, muzeylər, mağazalar, kirayə verilən evlər, tarix-mədəniyyət abidələri, tur firmalar, bələdçilər və sair haqqında ətraflı məlumatlar verilir.

Tərtib olunmuş iş planına əsasən mərkəzdə muxtar respublika ərazisində Naxçıvan-Ordubad, Naxçıvan-Gəmiqaya, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Əshabi-Kəhf və Naxçıvan Qarabağlar istiqamətləri üzrə 5 turizm marşrutunun hər biri üçün ayrı-ayrılıqda sxematik planlar işlənib, Azərbaycan və ingilis dillərində bukletlər hazırlanıb. Bundan əlavə, mərkəz tərəfindən muxtar respublikanın turist xəritəsi və Naxçıvan Turizm İnformasiya Mərkəzi haqqında da buklet hazırlanıb və çap edilib.

Naxçıvan Turizm İnformasiya Mərkəzində turizm marşrutlarının və reklam informasiya materiallarının yenilənməsi işi də müntəzəm olaraq davam etdirilir. Burada Naxçıvan-Gülüstan, Naxçıvan-Şahbuz-Batabat, Naxçıvan-Şahbuz-Ağbulaq turizm marşrutları və Nuh Peyğəmbərin məzarüstü türbəsinin bukleti, müalicə turizminin inkişafı məqsədilə Duzdağ Fizioterapiya Mərkəzinin kataloqu və "Naftalan nefti" reklam informasiya materialları hazırlanıb.

Bu gün Turizm İnformasiya Mərkəzi internet resurslarından səmərəli şəkildə istifadə edir, mərkəzin və eləcə də muxtar respublikanın turizm potensialının tanıdılması istiqamətində də işlərini davam etdirir. Qeyd edək ki, mərkəzin internet səhifəsi yenidən qurulub. Buraya daxil olan turistlər Naxçıvan Muxtar Respublikasının turizm potensialı, turistlər üçün məlumat, turizm marşrutları, turizm obyektləri, mehmanxana və motellər, kirayə verilən kənd evləri, restoran və kafelər, alış-veriş mərkəzləri, əyləncə obyektləri, muzeylər, teatrlar, kitabxanalar, milli geyimlər, musiqi alətləri, rəqslər, mətbəx nümunələri, tarixi abidələr barədə ətraflı məlumatlar əldə edə bilərlər. İnternet səhifəsində həmçinin banklar, turizm firmaları, bələdçi məlumatları, videoçarx və fotoşəkillər yerləşdirilib və keçid linkləri əlavə edilib. Məlumatlar Azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində də verilib, internet səhifəsi 2016-cı ilin iyun ayının 6-da şəbəkəyə qoşulub. Mərkəzin saytında turist qəbul edən 50-dən çox kənd evinin ünvanı haqqında məlumatlar və onlara aid fotoşəkillər yerləşdirilib, indiyədək internet səhifəsinə 90 mindən çox baxış sayı qeydə alınıb.



2016-cı il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan tapşırıqların icrası məqsədilə aidiyyəti təşkilatlar tərəfindən birgə tədbirlər planı hazırlanıb. Bu çərçivədə Naxçıvan Turizm İnformasiya Mərkəzinə də müvafiq tapşırıqlar verilib. Burada muxtar respublikanın turizm potensialının geniş və elmi şəkildə tanıdılması xüsusi diqqət yetirilən məsələ kimi qarşıya qoyulub. Bu məsələnin tələb edilən səviyyədə yerinə yetirilməsində əsas vasitələrdən biri sosial şəbəkələrdən istifadədir. Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların internetdə yerləşdirilməsi təmin edilib və mərkəzin "Youtube" kanalına 1000-dən çox məlumat – videoçarx daxil edilib, 300 mindən çox baxış qeydə alınıb. "Facebook" sosial şəbəkəsindəki səhifəsində 5 mindən çox paylaşım, 650 min baxış olub. Eyni zamanda mərkəzin "Facebook" sosial şəbəkəsindəki qrupunda qrup üzvlərinin sayı 12 min 128-ə çatdırılıb, 709 məlumat daxil edilib, 341 min 664 baxış sayı qeydə alınıb. Muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxlar "Twitter" və "Google+" səhifələrində də yayımlanıb. Sosial şəbəkələrə göndərilən məlumatlar mərkəzin "İnstagram" səhifəsində də istifadəçilərə təqdim edilir.

Qeyd edək ki, bu günədək mərkəzə gəlmiş 2800-dən çox xarici ölkə vətəndaşının müraciəti cavablandırılıb. Bu dövrdə Azərbaycanın digər bölgələrində yerləşən turizm informasiya mərkəzlərinə və turizm şirkətlərinə, həmçinin xarici ölkələrə muxtar respublikanın turizm imkanları ilə bağlı materialların göndərilməsi də diqqət mərkəzində saxlanılıb. 35-dən çox xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 270-dən çox turizm şirkətinə və bölgələrdə yerləşən 13 turizm informasiya mərkəzinə muxtar respublikanın turizm imkanları ilə bağlı məlumatlar göndərilib.

Naxçıvana qrup şəklində turist göndərən İran İslam Respublikasının, həmçinin Bakı şəhərində yerləşən böyük tur firmaların rəhbərlərinin və bölgələrdə yerləşən turizm informasiya mərkəzlərinin müraciətləri əsasında onlara muxtar respublikanı tanıdan tarixi abidələr, görməli yerlər haqqında buklet və materiallar verilib. Həmçinin mərkəzin elektron poçt ünvanına və əlaqə nömrələrinə müraciətlər də daxil olub. Bu müraciətlərə baxılır və müvafiq tur firmaları ilə əlaqələndirilməsi təmin edilir.

Ötən il 27 sentyabr – Ümumdünya Turizm Günü münasibətilə "Ümumdünya Turizm Günü: Naxçıvanı təqdim edirik" başlığı altında keçirilən internet-aksiyada Mədəniyyət və Turizm Nazirliyi aid təşkilatlarla birlikdə 10 bölmə üzrə minə yaxın foto və 152 tanıtım videosu hazırlayaraq mərkəzin veb saytında yaradılan eyniadlı bölmədə yerləşdirilib. Bu materiallar paylaşılmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fonduna, Gənclər və İdman Nazirliyinə, Naxçıvan Dövlət Televiziyasına, "Şərq qapısı" qəzetinə və digər qəzetlərə, informasiya agentliklərinə təqdim edilib. Ümumilikdə, aksiyada 1047 nəfər və 60 qrup iştirak edib. Naxçıvanın tanıtımı ilə bağlı 273 sayta məlumat göndərilib, 41 saytda material dərc edilib, 55 minə yaxın paylaşım, 265 minə yaxın bəyənmə və 851 mindən çox izləyici sayı qeydə alınıb.

"Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyi tərəfindən keçirilən müsabiqədə Naxçıvan Turizm İnformasiya Mərkəzi fəal iştirak edib, "Azərbaycan" məlumat kataloqunda Naxçıvan Muxtar Respublikası Bakı-Abşerondan sonra 2-ci yerdə təqdim edilib. Bundan başqa, məlumat kataloqunun hazırlanmasında iştirakına görə Naxçıvan Turizm İnformasiya Mərkəzinə sertifikat və fəxri fərman təqdim olunub, 50 nüsxə tanıtım kataloqu Naxçıvan Turizm İnformasiya Mərkəzinə hədiyyə edilib.

Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində təcrübə keçmə qrafikinə əsasən Naxçıvan Turizm İnformasiya Mərkəzində də olurlar. Burada tələbələrə muxtar respublikanın turizm potensialı, Naxçıvan Turizm İnformasiya Mərkəzinin yaradılması və fəaliyyəti, gördüyü işlər haqqında və mərkəzin yerləşdiyi tarixi abidə – Zaviyə mədrəsə binası barədə geniş məlumatlar verilir, onların sualları ətraflı cavablandırılır.

**Gülnarə SADİQOVA**
***Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru***

*Təbii sərvətlərimiz*

# Müalicəvi əhəmiyyətli *"Darıdağ"* mineral suyuna böyük tələbat var

***Zəngin təbiətə malik Naxçıvanın çoxsaylı faydalı qazıntıları və mineral sərvətləri vardır. Muxtar respublika ərazisində insan sağlamlığı üçün faydalı olan mineral suların qaynadığı bulaqlar çox əvvəllərdən tanınıb, onlardan müalicə və süfrə suyu kimi istifadə edilib. Azərbaycanı bütün dünyada tanıdan, "Sirab", "Badamlı" kimi milli brendlərimizə çevrilmiş bu sular həm də Naxçıvanın rəmzinə çevrilib. "Darıdağ" mineral suyu da öz müalicəvi əhəmiyyətinə görə belə sərvətlərimizdən biridir.***



"Darıdağ" təbii mineral müalicəvi süfrə suyu Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Gülüstan kəndindən 2,5 kilometr şimal-qərbdə Əlincəçay məcrasında yerləşən təbii bulaqdır. Bu mineral su mənbəyi 1962-ci ildə tapılmış və hazırda dərinliyi 135 metr olan quyudan çıxır. "Darıdağ" təbii mineral müalicəvi süfrə suyu kimyəvi tərkibinə görə Rusiyanın Kislovodsk şəhəri yaxınlığındakı "Narzan" və Naxçıvan Muxtar Respublikasının Babək rayonundakı "Sirab" mineral sularının analoqudur.

O, iysiz, rəngsiz, şəffaf və çöküntüsüz bulaq suyudur. Suyun tərkibi zəif turş mühitə malik, az minerallaşmış, kimyəvi tərkibinə görə hidrokarbonatlı, maqneziumlu-kalsiumlu-natriumludur. "Darıdağ" suyu həm təbii mineral süfrə suyu, həm də müalicəvi su kimi xüsusi əhəmiyyətə malikdir. Onun tərkibində müalicə əhəmiyyətli bioloji aktiv mikrokomponent olan silisium turşusu və karbon qazı aşkar edilmişdir. Mütəxəssislərin fikrinə görə, bu suyun tərkibindəki mikroelementlər insan orqanizmi üçün çox faydalıdır. Artıq ölkəmizin tanınmış həkimləri mədə-bağırsaq, qaraciyər və öd yollarının xroniki xəstəlikləri, maddələr mübadiləsinin pozulması, habelə şəkərli diabet, piylənmə kimi xəstəliklərin təbii üsullarla müalicəsində "Darıdağ" mineral suyundan istifadə etməyi tövsiyə edirlər.

Cari ilin aprel ayından başlayaraq "Prestij Naxçıvan Pivəsi" MMC-nin Culfa rayonunun Gülüstan kəndində yerləşən mineral sular sexində "Darıdağ" təbii mineral müalicəvi süfrə suyunun qablaşdırılaraq istehsalının təşkilinə başlanılıb. Keçən qısa müddət ərzində sifarişçilərin rəğbətini qazanmış bu mineral su "Darıdağ" markası ilə 0,5 və 1 litr tutumlu plastik qablarda istehsal olunur. Müəssisədə olarkən bildirdilər ki, "Darıdağ" təbii mineral müalicəvi süfrə suyu Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən Uyğunluq Sertifikatı və İSO 9001:2008 "Keyfiyyətin idarə edilməsi sistemi" sertifikatını alıb. Hazırda bu suya böyük tələbatın olduğunu və artıq 63 mindən çox "Darıdağ" suyunun istehsal olunaraq satış nöqtələrinə göndərildiyini də öyrəndik. İstehsal gücü saatda 3 min butulka olan müəssisədə hazırda 5 nəfər işlə təmin olunub. Gələcəkdə istehsalın genişləndirilməsi və daha çox həcmdə "Darıdağ" mineral suyunun istehlakçılara çatdırılması nəzərdə tutulub.

***Avqustun 17-də Kəngərli Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələrin müzakirəsi ilə bağlı tədbir keçirilib.***

# Sığorta fəaliyyətinin təşkili müzakirə edilib

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbiri açaraq son illərdə rayonda sığorta fəaliyyəti sahəsində görülmüş işlər haqqında danışıb. Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, cəmiyyətimizdə sığortanın inkişaf etdirilməsi və onun bir çox növlərinin tətbiq olunması günün tələblərindəndir. Bu baxımdan müasir dövrdə muxtar respublikamızın sosial-iqtisadi həyatında sığortanın əhəmiyyəti gündən-günə artmaqdadır.

Baş direktor vurğulayıb ki, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır. Diqqətə çatdırılıb ki, vaxtında sığorta olunmaqla sığorta hadisələri baş verdikdə insan sağlamlığına, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə qarşı təminat verilir, vurulmuş zərərlərin qısa müddətdə bərpa olunmasına şərait yaradılır. Bu baxımdan ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari qaydada sığortalanması həyata keçirilir. Gözlənilməz hadisələrə qarşı sığorta olunmaq və belə hallar baş verdikdə vətəndaşların onlara dəymiş zərərlərə görə sığorta ödənişləri almaq hüquqları qanunla təmin olunur.

Bildirilib ki, ötən müddətdə rayonda bu istiqamətdə müəyyən işlər görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Belə ki, Kəngərli rayonu üzrə cari ilin ilk 7 ayında, ümumilikdə, 3001 ədəd sığorta müqaviləsi bağlanılıb. Onların 506-sı avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 1147 ədədi isə daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılıb.



Nəzərə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin edilməlidir. Bu məqsədlə Kəngərli rayonunda vətəndaşlar arasında sığorta maarifləndirilməsi işlərinə diqqətin daha da artırılması və ayrı-ayrı sığorta növləri üzrə işlərin genişləndirilməsi zərurəti vurğulanıb. Könüllü sığorta növlərinin, o cümlədən kənd təsərrüfatının, ev əmlakının sığortası, fərdi qəza sığortasının əhəmiyyətinə toxunan baş direktor bildirib ki, bunlar, son nəticədə, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Ona görə də könüllü sığortalar sahəsində aparılan maarifləndirmə və təşkilati işlər genişləndirilməlidir.

Tədbirdə Kəngərli Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Anar Həsənov, Kəngərli Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Qrupunun baş dövlət avtomobil müfəttişi, polis mayoru Seyidrza Seyidov görülmüş işlər barədə məlumat veriblər.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbirə yekun vuraraq sığorta sahəsində görüləcək işlərlə əlaqədar aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib.

✍ **Əli CABBAROV**

Xalq yaradıcılığı

## Metal üzərində canlanan sənət əsərləri

***Azərbaycan xalqı özünün çoxəsrlik tarixi boyunca zəngin mədəniyyət yaradıb. Qədim xalq sənəti növlərindən biri də Mis dövründən qalma misgərlikdir. Tarixi mənbələrə görə, miladdan əvvəl VI minillikdə mis əldə edildikdən sonra ondan müxtəlif əşyalar hazırlanıb. Bir sənət kimi onun təşəkkülü artıq orta əsrlərdə böyük şəhərlərin misgərlik mərkəzinə çevrilməsinə gətirib çıxarıb.***



Qədim el sənəti bu gün də yaşadılır. Şərur rayon Oğlanqala kənd sakini Ramiz Məmmədov 25 ildən artıqdır ki, bu sənətlə məşğul olur. Ramiz usta onda uşaq vaxtlarından misgərliyə maraq yarandığını, atası və əmisinin də misgərliklə məşğul olduğunu deyir. Bədii döymə sənəti üzrə təhsil almış sənətkar, əsasən, məişət əşyaları üzərində işləyir.

Usta qeyd edir ki, kiminsə ürəkdən gələn istəyi, marağı yoxdursa, onun böyük səbir tələb edən bu sənəti öyrənməsi mümkün deyil. Misgərlər həm də incə, zərif zövqə malik olmalıdırlar. Alın təri tökmək hər sənətdə olduğu kimi, burada da vacib hesab edilir. Sözügedən mis qabların hazırlanması üçün əmək və vaxt sərf edilir. Savad da misgərlikdə vacibdir. Xüsusən rəssamlıq, xəttatlıq və həndəsədən baş çıxarmaq lazımdır. İstifadə olunan material kimyəvi maddələrdən hazırlanır. Hətta vurulan naxışlar belə, müxtəlif həndəsi fiqurlar üzərində başa gəlir. Mis elə bir metaldır ki, o usta işi sevir. Usta əlində bu əlvan metal istənilən sənət nümunəsinə çevrilə bilər. Vaxt olub ki, mis bəzək əşyaları qadınlarımızın aksesuarları olub.

Ramiz Məmmədovun sözlərinə görə, bu gün də misdən düzəldilmiş elə bəzək əşyaları var ki, qadınlar onlara daha çox üstünlük verirlər. Başqa sözlə, əsas olan metalın qiyməti deyil, sənətkarın işidir. Dədə-babadan qalma bu sənətin itib-batmaması, gələcək nəsillərə çatması üçün əlimizdən gələni əsirgəmirik. Düzdür, misgərlik ağır, çətin sənətdir. Ancaq bu sənət Azərbaycan xalqının çox qədim mədəniyyət və incəsənətindən soraq verir, ona görə də onu yaşatmaq lazımdır. Mis qablar vaxtilə süfrələrin bəzəyi olub.

Həmsöhbətimiz mis qabların necə hazırlanmasından danışarkən deyir: "Mis, yaxud bürünc materialla müxtəlif qabların formasını alır, sonra onun üzərinə diyircəkli qələm və ya markerlə eskizini çəkirəm. Ardınca bəzəklərini döymə üsulu ilə işləyirəm".

Usta sənətin incəliklərindən də danışaraq bildirir ki, mis, necə deyərlər, səhvi bağışlamır, dəmirə nisbətdə çox yumşaq olduğu üçün daha çox diqqət tələb edir. Qabların üzərinə ən çox milli ornamentlərdən olan buta naxışları döyürəm. Bəzən də müştərilərin istəyinə əsasən müxtəlif təsvirlər həkk edirəm. O vurğulayır ki, mis qab-qacaqların sayı və çeşidinin getdikcə azalması yalnız peşəkar misgərlərin barmaqla sayılacaq qədər olmasından irəli gəlmir. Şüşə və ya digər məmulatlara, məsələn, keramikadan hazırlanan məhsullara maraq artdıqca mis qablar kolleksiyaçılar tərəfindən toplanır və nəticədə, onlar muzey eksponatına çevrilirlər.

Bununla belə, yaşlı insanlarla söhbətdən də eşitmişik ki, mis qablarda hazırlanan xörəklər digər məmulatlardan fərqli olaraq daha dadlı, daha ləzzətli olur. Mis samovarda qaynamış çayın ətri uzaq məsafədən gəlir. Başqa sözlə desək, baba və nənələrimiz əbəs yerə mis qablara üstünlük verməyiblər. Heç indiyə qədər mis kasada ayran içmisinizmi? Əgər içməmisinizsə, bir dəfə dadmağınıza dəyər. Onda görəcəksiniz ki, mis kasadan içilən ayranın dadı başqalarından fərqlidir. Yetmiş illik sovet ideologiyası bizi tarixi keçmişimizdən, eləcə də milli mətbəximizdən, məişətimizdən ayırmağa çalışıb. Müstəqilliyimizin ilk illərində isə məlum səbəblərdən tariximizin yadigarları olan qiymətli məişət əşyalarımız xaricə aparılıb, həm də çox ucuz qiymətə. Ancaq yaxşı ki, milli dəyərlərimizə bu gün xüsusi önəm verilir. Misgərliyin öz qiymətini alması da xalq sənəti növlərinə verilən yüksək qiymətin növbəti təzahürüdür.

**Ramiyyə ƏKBƏROVA**

## Babək Rayon Xalq Teatrının uğurları artır



Muxtar respublikamızda xalq teatrlarının fəaliyyəti üçün lazımi şərait yaradılır. Artıq bir neçə rayonda fəaliyyət göstərən xalq teatrları regionun mədəni həyatında fəal çıxışları ilə diqqəti çəkir.

Bu günlərdə yolum Babək rayonuna düşmüşdü. Əsasən mədəniyyət sahəsilə bağlı yazılar hazırladığımdan burada da fəaliyyət göstərən mədəniyyət ocaqlarına baş çəkmək istədim, xalq teatrının işi ilə maraqlandım. Babək Rayon Mədəniyyət Evinin binasında yerləşən teatrın keçdiyi yolun tarixçəsi barədə bizi teatrın aktyoru, Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli məlumatlandırdı:

– Azərbaycanda teatr sənətinin kökləri xalqın həyatı, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynayıb. Xalq teatrının repertuarını müəyyən etik məzmunlu kiçik tamaşalar təşkil edib. Azərbaycan professional teatrının təşəkkülündə xalq teatrları əhəmiyyətli rol oynayıblar. Kökləri qədim zamanlara gedib çıxan teatr sənətinin tarixi Mirzə Fətəli Axundovun 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan "Lənkəran xanının vəziri" və "Hacı Qara" tamaşalarından başlanır.

Teatrın quruluşçu rejissoru Yusif Əliyev isə söhbətində bildirdi ki, Babəkdə tarixən müxtəlif yaradıcılıq sahələrinə maraq olub. O, ilk olaraq Babək Rayon Mədəniyyət Evinin dram dərnəyi haqqında danışdı:

– Dərnək üzvləri ilk dəfə 2006-cı ildə Cəlil Məmmədquluzadənin "Kamança" pyesi ilə səhnəyə çıxıblar. Kollektiv 2008-ci ildə Ənvər Məmmədxanlının "Xürrəmilərin ağ şahini" əsərindən bir parça ilə tamaşaçılar qarşısında çıxış edib. 2009-cu ildə braziliyalı yazıçı G.Fiqeyredonun "Ezop" əsəri ilə səhnəyə çıxan kollektivin növbəti tamaşası da rəğbətlə qarşılanıb. Elə həmin il dram dərnəyinə "Xalq teatrı" statusu verilib. Bu, kollektiv üzvlərinin məsuliyyətini daha da artırıb. Kollektiv 2010-cu ildə Bəxtiyar Vahabzadənin "Yollara iz düşür" pyesini, 2011-ci ildə Məhərrəm Əlizadənin "Şeyx Rəhmətullah" komediyasını, 2012-ci ildə Cəfər Cabbarlının "Solğun çiçəklər" pyesini tamaşaçılara təqdim edib.

Bundan sonrakı illərdə də xalq teatrının fəaliyyətini qənaətbəxş hesab etmək olar. "Yollara iz düşür", "İkinci səs", "Solğun çiçəklər", "Ana", "Məhəbbət nişanəsi", "Durna", "Yağışdan çıxdıq, yağmura düşdük", "Unuda bilmirəm" və digər tamaşalar oynanılıb.

Onu da öyrəndik ki, kollektiv 2015-ci ildə xalq teatrlarının muxtar respublika festivalında birinci dərəcəli mükafata layiq görülüb.

Repertuarında maraqlı səhnə əsərləri olan kollektiv tez-tez rayonun ayrı-ayrı yaşayış məntəqələrində, məktəblərdə olur, maraqlı tamaşalar göstərir.

**Fatma BABAYEVA**

## Sağlamlıq imkanları məhdud məktəbli uşaqların ekskursiyaları təşkil edilib



Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunublar. Onların sosial müdafiəsi, təhsili, cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir. Dövlət proqramının tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili bəndinin icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə avqustun 17-də uşaqların Naxçıvan şəhərində ekskursiyası təşkil olunub.

Həmin gün sağlamlıq imkanları məhdud 20 uşaq Naxçıvan şəhərində fəaliyyət göstərən Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində, Naxçıvan Biznes Mərkəzində, "Ləzzət Biskvit və Şokolad Fabriki" və "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli cəmiyyətlərində istehsal prosesi ilə tanış olub.

Sonra uşaqların Əyləncə və İstirahət Mərkəzində istirahətləri təşkil olunub. Nahar yeməyindən sonra onlar müxtəlif əyləncə guşələrindən və attraksionlardan istifadə ediblər. Uşaqlar ekskursiyadan xoş ovqatla ayrılıblar.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Yanacaqdoldurma məntəqələrində təhlükəsizliyin təmini üçün zəruri tədbirlər həyata keçirilməlidir

Muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması istiqamətində məqsədyönlü fəaliyyət göstərən Fövqəladə Hallar Nazirliyi yanacaqdoldurma məntəqələrində texniki və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl edilməsi məqsədilə maarifləndirmə və profilaktik tədbirlər həyata keçirir. Bütün bunları nəzərə alaraq nazirlik yanacaqdoldurma məntəqələrində müəssisə rəhbərləri və orada çalışan insanlar tərəfindən aşağıda qeyd olunan texniki və yanğın təhlükəsizlik qaydalarının tələblərinə ciddi əməl olunmasını tövsiyə edir.

Belə ki, yanacaqdoldurma məntəqələrinin istismarı zamanı təhlükəsizliyi qaydalarının pozulması, mövcud istismar qaydalarının tələblərinə əməl olunmaması və sair kimi hadisələr yanğın və partlayış təhlükəsi yarada bilər. Bundan əlavə, yeraltı maye yanacaq saxlama çənləri olan yanacaqdoldurma məntəqələrinin yaşayış, ictimai bina və qurğuların divarlarından ən azı 50 metr məsafədə tikilib-quraşdırılması tövsiyə olunur. Bu məsafə yanacaqpaylama kolonkalarından və yeraltı maye yanacaq saxlama çənlərindən başlayaraq hesablanmalıdır. Yalnız sutka ərzində yanacaq təchizatı 500 minik avtomobilindən çox olmayan yanacaqdoldurma məntəqələrinin yuxarıda qeyd etdiyimiz obyektlərədək olan məsafələri 25 metrə qədər azaldıla bilər.

Yanacaqdoldurma məntəqələrinin şəhərlərin yaşıllıq zonaları ərazisində, hidrometeoroloji stansiyalarının mühafizə zolaqlarında, su təchizatı mənbələri və su kəməri qurğuları sahələrinin, kurortların 1-ci sanitar-mühafizə zolaqlarında, tarixi və mədəni abidələrin mühafizə zolaqlarında, sürüşmə, qruntların çökmə, sel axını və qar uçqunu zonalarında yerləşdirilməsi qadağandır.

Yanacaqdoldurma məntəqələrində işə qəbul olunmuş hər bir əməkdaşın ümumi texniki, o cümlədən yanğın təhlükəsizliyi qaydalarını mükəmməl bilməsi çox vacibdir.

Belə obyektlərdə sutkalıq mühafizə təşkil edilməlidir. Yanacaqdoldurma məntəqələrində avtomobillərin təmiri üçün zərurət yaranarsa, bu iş paylayıcı kolonkalardan 25 metrdən az olmayan məsafədə həyata keçirilməlidir.

Məntəqələrdə yanğın və partlayış təhlükəsinə yol verməmək üçün digər qaydalara da əməl olunmalıdır. Belə ki, yanacaqdoldurma məntəqələrinin ərazisi, xüsusən paylayıcı kolonkaların ətrafı daim təmiz saxlanılmalı, avtomobillərə yanacağın doldurulması zamanı neft məhsulları yerə tökülərsə, dərhal təmizlənməlidir. Sərnişin daşıyan avtomobilləri sərnişinlərlə, partlayış, yanğın təhlükəli yüklər daşıyan avtomobillərin yüklə birlikdə yanacaqdoldurma məntəqələrinin ərazisinə buraxmaq, xüsusən də yanacaq doldurmaq üçün qəbul etmək qadağandır. Yanacaq doldurarkən avtomobillərin mühərriki söndürülməlidir. Yanacaqdoldurma məntəqələrində xidmətçilərin geyimlərinin yanacaqla kirlənməsinə yol vermək yanğın təhlükəsi yarada bilər.

Yanacaqdoldurma məntəqələrinə daxil olan və buradan çıxan avtomobillərin yolları bir-biri ilə kəsişməməli, hərəkətin sürəti saatda 20 kilometri keçməməlidir. Təhlükəsizlik məqsədilə yanacaqdoldurma məntəqələrinin müvafiq yerlərində yolnəqliyyat nişanları qoyulmalıdır.

Yanacaqdoldurma məntəqələrində yeraltı və yerüstü yanacaqsaxlama çənlərində sızmanı nəzarətdə saxlayan avtomatik sistemin nəzarət lövhəsi fasiləsiz olaraq müşahidə altında saxlanılmalıdır. Yadda saxlamaq lazımdır ki, yanacaqdoldurma məntəqələrində yanacaq daşıyan avtomobillərdən çənlərə yanacağın boşaldılması zamanı mütləq torpaqlanma tədbirləri görülməlidir. Əks-təqdirdə yanacağın boşaldılması zamanı yaranan statik elektriklənmə xoşagəlməz və bədbəxt hadisələrə səbəb ola bilər. Yanacaqdoldurma məntəqələrinin ərazisində siqaret çəkilməsi qəti qadağan edilməli və bu, ciddi nəzarətdə saxlanılmalıdır. Yanacaqdoldurma məntəqələrinin ərazilərində texniki və yanğın təhlükəsizliyi qaydalarına əməl olunması üçün məlumatverici və qadağanedici lövhələr vurulmalı və göstərilən tələblərə ciddi riayət edilməlidir.

Bu məntəqələrdə normativlə seçilmiş ildırımötürücü qurğunun quraşdırılması təhlükəsizliyin təmin olunması üçün zəruridir. Yanacaq çənlərinin hər birində havalandırma üçün hava buxar klapanları quraşdırılmalı və onların daima işlək vəziyyətdə olması müəssisə rəhbərləri tərəfindən nəzarətdə saxlanılmalıdır.

*Yuxarıda qeyd olunanlarla bağlı hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** xidməti telefonlarına zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 58, mənzil 19-da yaşayan Qəhrəmanova Südabə Cəlil qızının adına olan 15729 inventar nömrəli texniki pasport və MH-0029404 seriyalı çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, H.Rəhmanov küçəsi 7-də yaşamış Şirinova Qəndab Rza qızının adına olan 3796 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Saltaq kənd sakini Əliyev Əhəd Əli oğlunun adına olan JN-220$^{A}$ inventar nömrəli, 10605018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 655